# KİTABXANA-İNFORMASİYA SİSTEMİNİN İDARƏ OLUNMASININ YENİ NÖVÜ- İNFORMASİYA KONSALTİNQİ

**Xuraman Ağayeva**
*Biblioqrafiyaşünaslıq kafedrasının dosenti*
khuraman_v@mail.ru

***Kitabxana-informasiya sisteminin idarə olunmasının yeni növü- informasiya konsaltinqi***
***Xülasə:*** *Məqalədə kitabxana-informasiya fəaliyyətinin yeni idarəetmə sahəsi olan informasiya konsaltinqinin mahiyyəti açılır, konsultantın kitabxanaların keyfiyyətli idarə olunmasında xidmətləri və vəzifələri əsaslandırılır. Məqalədə həm də kitabxana marketinqi, menecment və biblioqrafik epistemiologiyanın fəlsəfi epistemiologiyadan üstün və fərqli cəhətləri göstərilir.*
***Новый вид управления библиотечно-информационной системой – информационный консалтинг***
***Резюме:*** *В статье раскрывается сущность информационного консалтинга, нового направления управления библиотечно-информационной деятельностью, а также оправданы услуги и обязанности консультанта по управлению качеством библиотек. В статье также изложены преимущества и недостатки библиотечного маркетинга, менеджмента и библиографической эпистемологии перед философской эпистемологией.*
***New type of library-information system management – information consulting***
***Abstract:*** *The article explains the essence of information consulting, the new management area of library-information activities, and the services and responsibilities of the consultant in the quality management of libraries. The article also outlines the advantages and disadvantages of librarianship, management and bibliographic epistemology over philosophical epistemology.*
***Açar sözlər:*** *informasiya konsaltinqi, konsultasiya, məsləhətvermə, innovasiya fəaliyyəti, kitabxana marketinqi, menecment, biblioqrafik epistemiologiya, biblioqrafik informasiya, biblioqrafik idarəetmə, biblioqrafik axtarış, analitik təhlil, diaqnostik analiz.*
***Keywords:*** *information consulting, consultation, consulting, innovation activities, library marketing, management, bibliographic epistemology, bibliographic information, bibliographic management, bibliographic search, analytical analysis, diagnostic analysis.*
***Ключевые слова:*** *информационный консалтинг, консультирование, консалтинг, инновационная деятельность, библиотечный маркетинг, менеджмент, библиографическая эпистемология, библиографическая информация, библиографический менеджмент, библиографический поиск, аналитический анализ, диагностический анализ.*

**Giriş:** Cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar olaraq virtual mühitin günü-gündən artdığı, genişləndiyi müasir dünyamızda yeniliklərin, yeni tədqiqat üsullarının tətbiqi artıq obyektiv zərurətə çevrilir. Yaşadığımız

müasir dövrdə idarəetmənin bütün sahələrində tətbiq olunmağa başlayan informasiya konsaltinqi bu cür yeniliklərdən biridir. İnkişaf etmiş Qərb ölkələrində informasiya konsaltinqi 1950-1960-cı illərdə yaranmağa başlamış və həmin dövr "konsaltinqin qızıl əsri" adlanmış və getdikcə idarəetmənin tərkib hissəsinə çevrilmişdir.

**Məsələnin qoyuluşu:** İntellektual, elmi, nəzəri bilik, peşəkarlıq, yeniliyi tətbiq etmək bacarığı, elmmetriyanın düzgün qiymətləndirilməsi, gələcəyi proqnozlaşdırmaq qabiliyyəti, analitik və məntiqi və diaqnostik təhlil metoduna əsaslanan informasiya konsaltinqi xidmətləri son zamanlar kitabxana-informasiya sahəsinə də sirayət etməkdədir və bu sahəyə də əlavə gəlir gətirə bilər.

İnformasiya konsaltinqi həyatımızın bütün sahələri üçün əhəmiyyətlidir. Xüsusilə, bu gün acınacaqlı dövrünü yaşayan kitabxana-informasiya sahəsinə elmi-texniki nailiyyətlərin, yeni informasya texnologiyalarının tətbiqini və elmi-nəzəri yeniliklərin tətbiqini zəruri edir.

Ağsaqqal sözü, xeyirli məsləhət uğurların, müvəffəqiyyətin əsasıdır, ağıllı insanlardan məsləhət almaq bütün tarixi dövrlərdə vacib olmuş və sosial-iqtisadi sahələrin inkişafına təkan vermişdir. Azərbaycanda "çörəyi ver çörəkçiyə birini də artıq ver" və ya "məsləhətli don gen olar" atalar sözü tez-tez xatırlanır, artıq bütün sahələrin idarə olunmasına düşünən beynlər, peşəkarlar dəvət olunur. İnkişaf etmiş xarici olkələrdə və respublikamızda elmi, biliyi, intellektual səviyyəsi, məntiqi təfəkkürü olan insanlara dəyər verilir, onlar idarəetməyə cəlb olunurlar.

Respublikamızda informasiya konsaltinqinin əhəmiyyəti hələlik lazımınca qiymətləndirilməmişdir. İngiliscədə "consultinq", latın dilində "consultatio" adlanan konsaltinq dilimizdə konsultasiya, məsləhət anlamına gəlir.

**Məsələnin izahı:** Nəzəriyyəçi alimlər və tədqiqatçılar konsaltinq xidmətlərini-məsləhətvermə, məsləhətləşmə xidməti hesab edirlər və onu idarəetmənin xüsusi növünə aid edirlər. Müxtəlif idarə və müəssisələrdə, kitabxanalarda həlli çətin olan problemli məsələlərin dü"ünən beynlər vasitəsilə həll etmək, elmi biliklərdən, intellektual potensialdan bəhrələnmək, real vəziyyəti dəyərləndirmək və sahənin inkişafı üçün əhəmiyyətli qərarlar qəbul etmək kitabxana konsaltinqinin əsasını təşkil edir. İdarəetmə üzrə Amerika Konsultantlar İnstitutunun prezidenti E.M.Şeysin dediyi kimi: "konsultantlar üçün öyrənmə dövrü ömür böyu davam edir."

Konsultasiya –kitabxana-informasiya müəssisəsinin problemlərinin araşdırılıb həll edilməsi istiqamətində müəyyən ixtisaslı mütəxəssis tərəfindən (konsultant) göstərilən xidmətdir.

Kitabxana konsaltinqi-kitabxanaçı-biblioqrafın istifadəçiyə bilik, bacarıq və təcrübəsinin təqdim etmə prosesidir.

Məsləhətvermə-istifadəçilərə problemlərin həllində peşəkar köməklik göstərilməsi prosesidir. Məsləhətvermə-idarə və müəssisə rəhbərlərinə, sahibkarlara, mütəxəssislərə, istifadəçilərə müxtəlif problemlərin həllində peşəkar köməyin göstərilməsidir.



Konsaltinq xidməti-kitabxana-informasiya müəssisələrində idarəedici heyətə əsas problemlərin həllində və müvəffəqiyyətin əldə olunmasında, başqa kitabxanalarla rəqabət qabiliyyətinin yüksəldilməsində göstərlən koməkdir.

İnformasiya konsaltinqinin əsas məqsədi kitabxana işinin idarə olunmasında mövcud olan problemlərin həllində və uğurun əldə olunmasında konsultantlar tərəfindən göstərilən köməkdir. Bu ştatda olan konsultantlar da ola bilər, sahəni gözəl bilən kənar konsultantlar və ya mütəxəssislər də.

Konsultant-kitabxana-informasiya müəssisələrinin eksterimal vəziyyətdən çıxmaq məqsədilə problemlərin həllində yardım edən, kitabxana-informasiya işini düzgün strateji istiqamətə yonəldən, sahənin gözəl bilicisi olan analitik və məntiqi təfəkkürə malik mütəxəssisdir. Konsultant bunun üçün aşağı-dakıları bilməlidir:

-kitabxana-informasiya müəssisəsinin qarşısında duran problemləri diqqətlə analiz etməli, problemləri üzə çıxarmalı;

-kitabxana-informasiya müəssisəsinin gələcəkdə düzgün inkişafı üçün layihə hazırlamalı, təklif etməli;

-informasiya texnologiyalarının tətbiqi sahəsində düzgün strateji xətt seçməli;

-kitabxana-informasiya müəssisələrinin inkişafı üçün konsaltinq layihələrini tətbiq etməyi bacarmalıdır.

Kitabxana-informasiya müəssisəsinin işi ilə dərindən tanış olduqdan sonra konsultant hər bir şöbə qarşısında duran məsələləri, vəzifələri düzgün müəyyən edə bilməli, işçilər arasında ədalətli iş bölgüsü apara bilməli, baza təhsilinə görə işçilərin şöbələr üzrə paylanmasını düzgün təşkili üçün məsləhətlər verməyi bacarmalıdır.

Kitabxana-informasiya müəssisəsində yaranmış vəziyyətdən asılı olaraq konsultantlar təkbaşına və ya komanda şəklində də fəaliyyət göstərə bilərlər.

Konsultantın əsas vəzifəsi müəssisədə yaranan problemlərin müəssisənin xeyrinə, maliyyə itkisi olmadan həll edə bilmək bacarığıdır.

Konsaltinqin əsas vəzifəsi kitabxanaların keyfiyyətli idarə olunması, onun fəaliyyətinin effektivliyi, əməkdaşlarının əmək fəaliyyətinin yüksəldilməsidir.

Konsultantlar bütün sahələrdə vardır. Bir müəssisənin və ya idarənin, dizaynı, moda sahəsində, firmalarda, şirkətlərdə sahəni yaxsı bilən insanlar konsultant kimi fəaliyyət göstərirlər.

Hətta ali məktəblərdə ən dəyərli, elmi-potensialı yüksək olan, sahəni nəzəri və təcrübi cəhətdən yaxsı bilən insanlar konsultant kimi elmin inkişafına xeyir verirlər. Belə şəxslərə dəyərli məsləhətlərinə görə haqq ödənilir, əvəzində həmin təşkilatlar düzgün strateji xətt götürür, iqtisadi, siyasi, mədəni və elmi rəqabətdə qalib gəlirlər.

Konsaltinq xidmətləri yaradıcılıq, intellektual bilik tələb edir. Buna görə də konsultant sahənin mahir bilicisi olmalı, lazım gəldikdə doğru məsləhət verməyi bacarmalı, onun verdiyi məsləhətlər virtuaz olmalı, diaqnostik təhlil

qabiliyyətinə malik olmalı, idarə və müəssisəyə, kitabxanaya, informasiya orqanına xeyir verməli, gəlir gətirməlidir.

Kitabxana-informasiya müəssisələrinin, informasiya orqanlarının idarə olunmasında çalışan konsultantlar diaqnostik analiz etməyi, analitik fikir yürütməyi bacarmalı, eksterimal vəziyyətdən doğru qərar qəbul edərək müəssisənin xeyrinə çalışmalı, əlavə gəlir mənbələri əldə etməklə müəssisənin inkişafını sürətləndirməlidirlər.

Elmi nailiyyətlərin, qabaqcıl təcrübənin geniş yayılmasında əsas rol oynayan kitabxanalar bütün imkanlarından səmərəli şəkildə istifadə edərək, istifadəçilərin müxtəlif sənədlərə olan tələbatının operativ yerinə yetirilməsi üçün biblioqrafik işin bütün proseslərinin yüksək səviyyədə həyata keçirilməsini təmin etməlidirlər.

İndiki şəraitdə hər bir kitabxananın xidmət etdiyi oxucu qruplarının elmi biliklərə olan böyük ehtiyacı kitabxanalarda idarəetmə işinin inkişafını və elmi təşkilini zəruri edir. Ayrı-ayrı kitabxanalarda biblioqrafik fəaliyyəti düzgün istiqamətləndirmək idarəetmə sistemlərinin əsas vəzifəsidir. İdarəetmədə çalışan əməkdaşlar qarşısında qoyulan tələblər bunlardır: sərriştəlilik (işi bilmək) işgüzarlıq (işi aparmaq bacarığı), elmi, təcrübi və inzibati cəhətləri əlaqələndirmək, sistemlik, idarəetmə kadrlarının hazırlanması və təkmilləşdirilməsi, istifadəçilərə operativ ənənəvi və elektron xidmətin göstərilməsi.

Biz istəsək də, istəməsək də cəmiyyətin inkişafı ilə bağlı olaraq atrıq kitabxana-informasiya sahəsinin terminologiyasına yeni anlayışlar - "menecment", "marketinq", "informasiya konsaltinqi", "informasiya logistikası", "biblioqrafik epstemiologiya", "kitabxana innovasiyaları" kimi yeni terminlər daxil olur.

Kitabxana-informasiya və biblioqrafik fəaliyyətin əsas istiqamətlərinə yeni məsələlər daxil olur: analitik və diaqnostik təhlil, informasiya konsaltinq və innovasiyalar və s.

İnformasiya konsaltinqinin əsasında ayrı-ayrı kitabxanaların biblioqrafik fəaliyyətinin və inkişafının araşdırılmasına yönəldilmiş analitik istiqamət dayanır. Mətn və statisik hesabatların tərtib edilməsi, kitabxanada biblioqrafik fəaliyyətinin əsas istiqamətləri üzrə illik informasiya icmalının hazırlanması analitik fəaliyyətin nəticəsidir. Analitik təhlil əsasında kitabxanaçı-biblioqraflara metodik köməklik-məsləhətlər, metodik tövsiyələrlə konsaltinq xidməti həyata keçirilir. Kitabxana-biblioqrafiya işinin analitik təhlili onda olan çatışmazlıqları aşkar etməyə imkan verir və bu isə yeniliklərin tətbiqini tələb edir.

Kitabxanaçı-biblioqraflara məsləhətlərin verilməsi metodik köməyin ənənəvi formalarından biridir. Metodik məsləhətlərdə hər təklif, məsləhət, tövsiyə elmi və metodik cəhətdən əsaslandırılmalı və təklif edilən üsulun, iş formasının ən məqsədəuyğun və münasib olanı seçilməlidir. Elmi cəhətdən əsaslandırılmayan tövsiyələr gərəksizdir, gələcəkdə tətbiq olunması, həyata keçirilməsi mümkün deyil.

Konsultant-biblioqraflar tərəfindən verilən metodik məsləhətlər formasına görə şifahi-kitabxanalara metodik mərkəzin konsultantları, kitabxanaçı-bib-



lioqrafları tərəfindən gedişlərin təşkili, habelə telefonla və ya müxtəlif elektron vasitələrlə əlaqə saxlanması, elektron biblioqrafik xidmət üsulları yolu ilə və yazılı – kitabxanalarda biblioqrafik iş üzrə ənənəvi və elektron metodik vəsaitlərin, metodik tövsiyələrin, məktubların hazırlanması və göndərilməsi formasında həyata keçirilir.

İnnovasiya fəaliyyəti- kitabxanada yeniliklərinin axtarışı, qiymətləndirilməsi, hazırlanması və tətbiqi kimi başa düşülür. Metodik mərkəzlər və konsultantlar yenilikləri tədqiq etmək, onları yaratmaq, təbliğ etmək və öz işində onlardan istifadə etməyi bacarmalıdır.

"İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İnnovasiya-yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. Bu fəaliyyətin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir.

Kitabxana marketinqi müxtəlif görünüşlü idarəetmə fəaliyyətidir ki, kitabxana məhsulunun və xidmətinin istehsalat hərəkətinə təsir edir. Kitabxana marketinqində əsas amillərdən biri sistemli yanaşmadır. Kitabxana marketinqinin əsas məqsədi kitabxana xidmətində oxucunun maksimumtələbini ödəmək, sorğuları tam cavablandırmaq, fərdi və kollektiv istifadəçilərin yeni kateqoriyalarını genişləndirmək, bölgələrdə və təşkilatlarda kitabxanaların müsbət obraz kimi formalaşdırılmasını təmin etməkdir. Marketinq metodu çoxşaxəlidir: kitabxana xidmətinin təşkilində çatışmaqlıqların analitik təhlili; istifadəçilərin potensial və real tələbatlarının öyrənilməsi; resurs və xidmətin yeni konsepsiyasının işlənib hazırlanması; müxtəlif reklam çarxları vasitəsilə istifadəçilərdə kitabxana resursuna marağın artırılması; cəmiyyətin sosial tələblərinin öyrənilməsi yolu ilə pullu xidmət siyasətinin təmin olunması kimi metodlar daxildir. Kitabxana marketinqi əsasən marketinq xidməti və marketinq istehsalı kimi iki hissəyə bölünür.

"Menecment" ingiliscə idarəetmə, təşkiletmə deməkdir. Müasir dövrdə menecment idarəetmənin daha ali, daha geniş təzahürü kimi qiymətləndirilir. Dünya kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsi sübut edir ki, hər bir ölkədə kitabxana işinin, əhaliyə kitabxana xidmətinin tərəqqisi həlledici dərəcədə bu mürəkkəb prosesin idarə olunmasının səviyyəsindən asılıdır. Bu baxımdan kitabxana işinin idarə olunmasının daha mütərəqqi vasitəsi olan kitabxana menecmentinin formalaşması xüsusi aktuallıq kəsb edir. Kitabxana menecmentinin ən başlıca məqsəd və vəzifəsi kitabxanalarda mühafizə edilən informasiya daşıyıcılarından, kitabxanaların imkanlarına əsaslanmaqla bəşəriyyətin informasiya potensialından səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. Kitabxana menecmenti həm də kitabxana-informasiya müəssisələri işçilərinin

əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının mütərəqqi formasıdır. Kitabxana menecmentinin uğurla həyata keçirilməsi köklü şəkildə menecerlərin fəaliyyətindən asılıdır. Menecerlər hər bir kitabxana şəbəkəsinin və ya bir kitabxananın həyatında aparıcı rola malikdirlər.

Kitabxana menecerləri müasir kitabxana-informasiya fəaliyyəti üzrə peşəkar biliklərə və təcrübəyə malik olmalıdır; kitabxanaların fəaliyyəti ilə əlaqədar müxtəlif situasiyalarda əsaslandırılmış qərarlar qəbul etməyi bacarmalı; bütövlükdə idarəçilik işinin xarakteri, prinsipləri və məzmununa dərindən bələd olmalı; işçi heyətini yüksək səviyyədə idarə etməyi bacarmalı; menecment fəaliyyəti ilə əlaqədar bütün müasir informasiyaya malik olmalı, dünya informasiya məkanını yaxşı bilməsi; öz fəaliyyətinə qiymət verməyi, öz-özünü idarə etməyi; öz fikir və mühakimələrini dəqiq və aydın ifadə etməyi, əsaslandırılmış, məntiqi danışıq qabiliyyətinə malik olmalıdır. Azərbaycan kitabxanalarının ağır vəziyyətini nəzərə alaraq artıq kitabxanalarda marketoloq, menecer və konsultant ştatlarının yaradılmasının vaxtı çatmışdır.

Biblioqrafik epistemologiya isə informasiyanın fəlsəfəsidir. Sosial epistemologiya fərd və cəmiyyətin ətraf mühitə uyğunlaşmasını müəyyən edirsə, biblioqrafik epistemiologiya biliklərin ötürülməsini, ondan daha səmərəli istifadə olunmasını təmin edir.

Antik dövrlərdən bu günümüzə qədər metafizika ilə maraqlanan elm adamlarının mümkün ola biləcək və bilməyəcək informasiya, informasiyanı təkzib, inkar edən informasiya ilə bağlı düşüncələri və problemlər informasiyanın fəlsəfəsini meydana gətirdi. Beləliklə də biliklərin elmi əsaslandırılmasından qaynaqlanan fəlsəfənin bir qolu hesab edilən "epistemologiya" elmi yarandı.

Qədim Yunan dilində "epistemo"- bilik, "loqos-elm" sözlərinin birləşməsi olan elm-epistemologiya, fəlsəfənin bir qolu kimi elmi, məntiqi və analitik araşdırma sahəsi olaraq bu gün də aktuallığını saxlayır.

Epistemologiyaya çap məhsullarında az rast gəlinsə də, əslində günümüzdə ən vacib sayılan elmi istiqamətdir. İnsanları maraqlandıran, öz elmi sübutunu tapmamış bir çox sahələr var ki, əslində çox böyük maraq dairəsi olaraq mətbuata, sosial şəbəkələrə nüfuz etmişdir. Məsələn, parapsixologiya, paralel dünya, başqa planetlilər, kosmosda yaşayış, kosmosda zaman anlayışı, qalaktikamızın başqa qalaktikalara doğru genişlənməsi, işınlama və s. digər maraq yaradan mövzular əlbəttə cəmiyyətdə birmənalı qarşılanmır. Ağıla sığmayan mövzular, ölümdən sonrakı həyat, axirət, cənnət və cəhənnəm, fövqəlbəşəri varlıqlar, mistika və digər mövzular insanın etinasız qalmadığı, daim düşündükləri və elmi araşdırma tələb edən mövzulardır.

Hər hansısa sahədə əldə etdiyimiz və ya edə bilmədiyimiz məlumatlar və onların doğru olub olmadığı məsələsi cəmiyyətdə həmişə maraq doğurur. Heç şübhəsiz ki, mistik informasiya hər zaman eyni cür qarşılanmır. Təbiidir ki, şübhələr də olur, zaman keçdikcə təsdiqi və təkzibi də olur. Nəticədə informasiyanın elmlə, ağılla mühakiməsindən məntiqə yol aça bilən fəlsəfə "epistemologiya" doğru cavabı tapmaqda, informasiyanın fantaziya və reallıq olduğunu sübut etməkdə insanlara yardım edir.



Epistemologiya informasiyanın xarakteri, əhatə dairəsi və mənbəyi ilə maraqlanan fəlsəfi düşüncələri özündə əks etdirən bir elm sahəsidir. Kainatın təməl maddəsinin nədən ibarət olması kimi fikirlər bir çox alimləri düşündürdüyü, fərqli fikirlərin yarandığı, elmi mübahisələrin, həqiqətin nədən ibarət olduğunu düşünən alimlərin fikirləri epistemoloji fikir ayrılıqları yaratdı, elmi çəkişmələrə səbəb oldu və epistemologiyaya müxtəlif arqumentlərdən baxış formalaşdırdı.

İnsan hər hansı bir informasiyanın mənbəyini nə qədər, hara qədər öyrənilə bilər, öyrəndiyimiz informasiyanın elmi əsası varmı, başlanğıc nöqtəsi hardadır? Hər hansı doğru bildiyimiz informasiyanı dəqiq bildiyimizdən nə qədər əmin ola bilərik və bu informasiyanın qaynağı, yəni mənbəyi hardadır. Bütün bu suallara isə biblioqrafik epistemologiya cavab verir. Epistemologiya elə bu nöqtədə biblioqrafiya ilə kəsişir. Hər ikisinin də obyekti informasiyadır.

Epistemologiya fəlsəfi düşüncələrə əsaslansa da, biblioqrafiyanın isə obyekti real mövcud olan informasiyadır, sənədlərdir. Biblioqrafiya həmin informasiyanın mənbəyini, saxlanma yerini, axtarır, tapır və tələbatçılara çatması yollarını da araşdırır və informasiyanın istifadəçiyə operativ çatdırılmasını təşkil edir, yəni real informasiya ilə istifadəçi arasında vasitəçi olur. Başqa sözlə biblioqrafiyanın obyekti təkcə informasiya deyil. O həm informasiyanı analitik-sintetik cəhətdən işləyir, biblioqrafik təsvirin dəqiqləşdirilməsi ilə doğru olduğunu təsdiq edir, elm sahələri üzrə bölür, sistemləşdirir, qruplaşdırır və həm də istifadəçiləri öyrənir, onların təsnifatını verir, informasiyanın istifadəçilərə tez və operativ çatdırılmasını təmin edir. Bu nöqtədə biblioqrafik epstemiologiyanın əhəmiyyətinin fəlsəfi epistemologiyadan daha böyük olduğu qənaətinə, nəzəriyyəsinə əsaslanmaq olar.

Yaranan bu kimi suallar informasiyanın fəlsəfiləşdirir. Doğru ya səhv olması ona müxtəlif fəlsəfi yönlərin baxışlarını yaratdı. İnformasiyanın fəlsəfəsi, yəni epistemologiyanın doğruluq, həqiqət, təməl, məntiq kimi vacib keyfiyyətləri vardır. Məsələn, informasiya mifik dediyimiz təsəvvürlərə əsaslanırsa, yəni biz belə fikirləşiriksə və bu baxımından araşdırırıqsa, onda ortaya atılan problem isbat edilməyəcək kimi qalır, sübutu olmur.

Biblioqrafiya isə fərqlidir. O özünün axtarış funksiyası ilə tarixi qaynaqları araşdırır, doğru məlumatı üzə çıxarır, dəqiq biblioqrafik təsvir, biblioqrafik informasiya yaradır və biblioqrafik epistemologiyanın doğruluq, həqiqət, təməl, məntiq kimi vacib keyfiyyətlərinin işləməsinə yardım göstərir.

İnformasiyaya münasibətimizi dəyişdiyimiz zaman biblioqrafik axtarış nəticəsində yeni informasiyalar, bir çox sübutlar, bəlkə də kəşflər meydana gələ bilər. Bu bizim məsələyə ciddi və yaxud səthi yanaşmamızdan birbaşa asılıdır. Böyük sənəd kütləsi, sənəd-informasiya resursları içərisində tələbata uyğun doğru, ən vacib informasiyanı axtarıb tapmaq, istifadəçiyə ötürmək isə

biblioqrafiyanın birbaşa işidir, biblioqrafik epistemologiyadır, informasiyanın fəlsəfəsidir.

Bütün bu məsələlərin araşdırılmasında konsultant-biblioqrafların xüsusi əməyi vardır. Konsultant –biblioqrafın peşə psixoloji keyfiyyəti dedikdə onda peşə yaddaşının inkişafı, biblioqrafik əlamətləri (sənədlərin adlarını, müəllifləri, müxtəlif elm, ədəbiyyat və incəsənət xadimlərini, kitab tarixinə dair məlumatları) məqsədyönlü xatırlamaq qabiliyyəti, sənədlər sayəsində onu əhatə edən aləmi müşayiət etmək, xarici həqiqətlər, adamlar və sənədlər arasındakı ən müxtəlif əlaqələri vaxtında sezmək bacarığı nəzərdə tutulur.

Konsultant-biblioqraflar xidmət göstərdikləri sahədə pedaqoji və psixoloji baxımdan hazırlıqlı olmalı, insanlarla davranışda mədəni səviyyəsi, informasiya mədəniyyəti yüksək olmalı, biblioqrafik axtarış zamanı qısa vaxt ərzində qərara gəlmək, müxtəlif və mürəkkəb xarakterli sorğuların qeyri-bərabər axını şəraitində səriştəli fəallıq göstərmək, informasiya tələbatçıları ilə münasibətdə emosional sabitliyi gözləmək və həddən artıq ehtiyatlı olmağı bacarmaq əsas məsələdir.

**Nəticə:** Ümid etmək olar ki, Azərbaycan kitabxanalarının idarə olunmasına düşünən beynlərin cəlb olunası, informasiya konsultantı ştatının yaradılması, konsaltinq xidmətinin təşkil olunması respublikamızda kitabxana-informasiya xidmətinin səviyyəsini yüksəldəcək və kitabxana-informasiya müəssisələrini cəmiyyətin "olmazsa olmaz"ına çevirəcəkdir.

**Ədəbiyyat**


1. Ağayeva X.T. Kitabxana innovasiyaları və müasir dünyada kitabxanaların inkişafının perspektivləri //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi nəzəri və təcrübi jurnal.-2015.-№2.-32-38.
2. Ağayeva X.T. Kitabxanaçı-biblioqrafın peşə kompetensiyası haqqında // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və praktiki jurnal.-2016.-№1.-S.69-81.
3. İsmayılov N.İ., Ağayeva X.T. Biblioqrafiya haqqında müasir konsepsiyalar // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və praktiki jurnal.-2018.-№1.-S.41-47.
4. Xələfov A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası:Dərslik.-Bakı,Bakı Universiteti Nəşriyyatı, 2014.- 552 s.
5. Tkaliç A.İ. Konsaltinq xidməti /Tərc.ed:H.Nərimanoğlu,V.Kazımzadə.-Bakı, 2011.-216 s.


**Rəyçi: p.ü.f.dok., dos. N.İ.İsmayılov**